# Paytaxt təhsilində yeniliklər

## İşə qəbulla bağlı müsabiqə keçirilib

Oktyabrın 8-də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrinə gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbər vəzifəsinə işə qəbul olunmaq üçün müsabiqə keçirilib.

42 nömrəli tam orta məktəbdə təşkil olunan müsabiqəyə qatılan şəxslər ixtisaslarına dair 40 sualdan ibarət test tapşırığını 1 saat ərzində cavablandırıblar. Qeydiyyatdan keçmiş 102 nəfər namizəddən 81-i müsabiqədə iştirak edib.

Qeyd edək ki, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Gənclərin ibtidai hərbi hazırlıq Əsasnaməsi"nə uyğun olaraq, gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbər vəzifəsində ali və ya orta ixtisas hərbi, yaxud ali mülki təhsilli ehtiyatda (istefada) olan zabitlər işləyə bilərlər.

Təhsil Nazirliyinin əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrində və peşə liseylərində müəllimlərə tələbatın müəyyənləşdirilməsi, pedaqoji kadrların işə qəbulu və yerdəyişməsi Qaydaları"na əsasən, məktəblərdə vakant olan gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbər vəzifəsinə işə qəbul Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin strukturuna daxil olan yerli idarəetmə orqanları və tabelik üzrə təhsili idarəetmə orqanı ilə razılaşdırılmaqla, müəssisə rəhbəri tərəfindən həyata keçirilir.



Bakı şəhərindəki ümumi təhsil müəssisələrinə gənclərin çağırışaqədərki hazırlığı üzrə rəhbər vəzifəsinə işə qəbul olunmaq üçün müraciətlərin çoxluğu nəzərə alınaraq, eyni zamanda işə qəbulun daha səmərəli və şəffaf həyata keçirilməsi, ümumi təhsil müəssisələrinin yüksək səviyyəli kadrlarla təmin edilməsi məqsədilə, BŞTİ tərəfindən 2016-2017-ci tədris ili üçün müvafiq vəzifəyə qəbulla əlaqədar müraciət edən şəxslər sırasından namizədlərin müsabiqə əsasında seçilərək işə qəbuluna razılıq verilməsi məqsədəuyğun hesab edilib.

Müsabiqədə göstərdiyi nəticə nəzərə alınaraq, eyni zamanda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin strukturuna daxil olan yerli idarəetmə orqanının yazılı razılığı təqdim edildikdən sonra namizədin işə qəbuluna BŞTİ tərəfindən müvafiq razılıq veriləcək.

## Yeni layihəyə start veriləcək

Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) 2016-2017-ci tədris ili üzrə fəaliyyətini "Təhsili dəyərə çevirək" devizi altında reallaşdıracaq.

Oktyabrın 19-da BŞTİ "Təhsili dəyərə çevirək" devizi altında reallaşdırılan "Məktəb seminarları" layihəsinə start verəcək.

Paytaxtın ümumi təhsil məktəblərini əhatə edən "Məktəb seminarları" layihəsinin məqsədi keyfiyyətli tədris, birgə rəhbərlik, məktəblərin təşkilati mədəniyyətinin inkişafı, təhsil sahəsindəki yeniliklərin uğurla icra olunması, habelə məktəblərin "öyrənən məktəb-öyrənən təşkilat" kimi inkişaf etdirilməsinə dair mövzularda seminarlar keçirmək və bu kimi digər vacib dəyərləri təbliğ etməkdən ibarətdir.

"Təhsili dəyərə çevirək" devizi altında reallaşdırılan "Səmərəli məktəb yaradaq" təşəbbüsü çərçivəsində "Məktəb seminarları", "Oxu marafonu", "Qlobal yazı", "Beynəlxalq əməkdaşlıq", "75 məktəb", "Qlobal vətəndaşlıq", "Məktəb idarəetməsinin dəstəklənməsi", "Kitabxana dərsləri" və digər silsilə layihələr həyata keçiriləcək.

Layihədə Bakı şəhərinin 12 inzibati rayonu daxil olmaqla, bütün məktəblərin direktorları, təlim-tərbiyə və təşkilati işlər üzrə direktor müavinləri, psixoloqlar, kitabxanaçılar, uşaq birliyi



rəhbərləri, məktəb icmaları və valideyn komitələrinin rəhbərləri, yuxarı sinif şagirdləri, habelə metodbirləşmə rəhbəri və qabaqcıl müəllimlər iştirak edəcək.

İlk olaraq layihənin icrasına Pirallahı rayonunda yerləşən 186 nömrəli tam orta məktəbdə başlanılacaq.

Qeyd edək ki, "Məktəb seminarları" layihəsi 2015-2016-cı tədris ilində təhsildə uğurlu nəticələr əldə edən məktəblərin nailiyyətlərinin müzakirəsi və idarəetmə istiqamətində mövcud olan uğurlu təcrübənin bölüşdürülməsi məqsədilə həyata keçirilən "Nəzəriyyədən təcrübəyə" adlı "Açıq qapı" layihəsinin davamıdır. Layihənin ikinci ilində məqsəd təhsildəki keyfiyyət artımının daha da dayanıqlı olması, "keyfiyyətli təhsil vermə", "xoşbəxt şagird - keyfiyyətin ən vacib göstəricisi" kimi amilləri əsas götürməklə səmərəli məktəb ideyasının bir dəyərə, ənənəyə çevrilməsini təmin etməkdir.

## BŞTİ könüllülər dəvət edir

Bakı Şəhəri üzrə Təhsil İdarəsi könüllü əsaslarla işləmək arzusunda olan gəncləri əməkdaşlığa dəvət edir. Könüllü kimi fəaliyyət göstərmək istəyən gənclər BŞTİ-nin müxtəlif sektorlarında 3 ay təcrübə keçmək imkanı qazanacaqlar. İntizamlı, xoşrəftar, kollektivdə çalışmaq istəyi olan, kompüterdə işləməyi bacaran, xarici dil biliklərinə malik, ali təhsilli və ya ali təhsil müəssisələrinin son kursunda oxuyan gənclər könüllü fəaliyyət göstərmək üçün müraciət edə bilərlər. Könüllü kimi fəaliyyətini uğurla başa vuran gənclərin hər birinə BŞTİ tərəfindən təsdiqləyici sənəd veriləcək.

Qeyd edək ki, artıq könüllülük proqramı əsasında 40 nəfər gənc BŞTİ-də ixtisaslarına uyğun sektorlarda 3 ay təcrübə keçib.

## Səbail, Qaradağ və Yasamal rayonları üzrə səyyar qəbul

Oktyabrın 14-də Bakıdakı 18 nömrəli tam orta məktəbdə Səbail, Qaradağ və Yasamal rayonları üzrə səyyar qəbul keçirilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi və struktur bölmə əməkdaşlarının iştirak etdiyi səyyar qəbul vəzifə funksiyalarının tələb olunan səviyyədə yerinə yetirilməsi istiqamətində müəssisə rəhbərlərinin məsuliyyətinin artırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəblərdə daha sağlam və yaradıcı mühitin təmin olunması üçün sistemli iş aparmaq məqsədlərinə xidmət edir.

Səyyar qəbulda iştirak edən vətəndaşlar məktəblərdə tədrisin təşkili, maddi-texniki təminat, müəllimlərin dərs yükü və digər müvafiq məsələlərlə bağlı müraciət ediblər. Vətəndaşlar tərəfindən qaldırılmış bütün məsələlər qeydiyyata alınıb. Bir sıra müraciətlər yerindəcə həllini tapıb, digər məsələlərin həlli ilə bağlı müvafiq tədbirlərin icrasına başlanılıb.

## Məktəblilər üçün maarifləndirici təlim

Məktəblilərin ekoloji və insan alveri mövzularında maarifləndirilməsi, şagirdlərin ekoloji savadlılığının artırılması, onlarda ətraf mühitin qorunması ilə bağlı sosial bacarıqların formalaşdırılması məqsədilə Bakı şəhərindəki 328 nömrəli tam orta məktəbdə təlim keçirilib.

"Yaşıl dünyamız—sağlam gələcəyimiz" adlı fərdi layihə çərçivəsində təşkil olunan təlimdə ekoloji problemlər, onların fəsadları, dünyada və ölkəmizdə mövcud olan müvafiq problemlərin həlli yolları barədə geniş müzakirə aparılıb.

Təlimdə həmçinin, insan alveri ilə bağlı problemin səbəblərinin araşdırılması və prosesin qarşısının alınmasında cəmiyyətin dəstəyi, insan əməyinin hər cür istismarının mənfi təsirləri barədə şagirdlərə məlumat verilib.